# HƏM RƏY LİK







## ən böyük gücdür!

YAVUZ BAHADIROĞLU



İPƏKYOLU NƏŞRİYYATI




# ən böyük gücdür!

YAVUZ BAHADIROĞLU

Kitabın orijinal adı:
Dayanışma

Müəllif:
Yavuz Bahadıroğlu

Nəşrə Hazırlayan:
t.f.d Abbas Qurbanov

Anadolu türkcəsindən
Azərbaycan türkcəsinə uyğunlaşdıran:
Əziz Sultanov

Redaktor:
Mehriban Əbdürrəhimova

Rəssam:
İbrahim Çiftçi

Dizayn:
Cemile Kocaer
Nicat Qəribov

Bakı-2019, No:324-011
İSBN: 978-605-131-334-4

---

Kitabda ifadə olunan mövqe və fikirlər müəlliflərə aiddir; Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) və Gəncliyə Yardım Fondunun mövqeyini əks etdirən mətnlər olaraq qiymətləndirilə bilməz.

Bakı Şəhəri Səbail Rayonu Cəfərov Qardaşları, 16.
Tel: (+994 12) 492 14 38 / Mobil: (+994 51) 412 22 82
Elektron poçt: ipekyoluneshriyyati@gmail.com



# HƏMRƏYLİK

## ən böyük gücdür!

YAVUZ BAHADIROĞLU

TİKA

Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi Bakı Proqram Koordinatorluğu

AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLİYƏ YARDIM FONDU · THE REPUBLIC OF AZERBAIJAN THE FUND OF AID FOR YOUTH · GYF

Azərbaycan Respublikası Gəncliyə Yardım Fondu

Bu kitab, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) və Gəncliyə Yardım Fondu əməkdaşlığında 23 aprel Uşaq Bayramı münasibəti ilə həyata keçirilən "***Kitabın İşığın Olsun***" layihəsi çərçivəsində çap olunmuşdur.





# İÇİNDƏKİLƏR


XALLI BALIQ ........................ 5

SARP KEÇİDİ ........................ 14

DƏNİZ KƏNARINDA PİKNİK ... 23

KABUS GƏMİ ........................ 31

XEYİRSİZ XEYRİ ........................ 37

BİRLİKDƏ ........................ 45

ƏN SEVİMLİ BAYRAM ........................ 51

FİTRƏ ........................ 58

DOST ........................ 64

QAÇAQ ........................ 71

FƏALİYYƏTLƏR ........................ 81




# XALLI BALIQ

Kənd camaatının sevinci yerə-göyə sığmır, hər kəs iş-gücünü bir kənara qoyub yeni qurulacaq fabrik haqqında danışırdı.

- Bu fabrik, - deyirdi Mustafa bəy, - bu fabrik kəndimizə yol gətirəcək, su gətirəcək, elektrik gətirəcək! Xülasə, bizə həyat gətirəcək, əziz camaat!..

Kəndin icra nümayəndəsi olan Mustafa bəy təməlqoyma mərasimində icra başçısının ağzından eşitdiyi bu sözləri artıq əzbərləmişdi. O gündən bəri kimi görsə, qır-saqqız olub yapışır, eyni sözləri təkrarlayırdı:

- Bu fabrik həyat gətirəcək!

Balaca Mətin onun danışdıqlarını tam olaraq dərk edə bilmirdi. Bu söhbətlərdən belə nəticə çıxarırdı ki, artıq kənd öz kəndliyindən çıxacaq, şəhərə bənzəyəcək;yol, su, elektrik... Allah bilir, hələ nələr olacaq!



Mətinin on yaşı vardı. Çox ağıllı uşaq idi. Niyəsini özü bilməsə də, bu fabrik söhbətindən heç xoşu gəlmirdi.

Əvvəlcə təzə yol çəkilmiş, sonra fabrikin bünövrəsi üçün yer qazılmışdı. Fabrik çayın kənarında, çox geniş bir ərazidə qurulacaqdı. Torpağın altını üstünə çevirən nəhəng iş maşınlarının qulaqbatıran səsi hələ ilk gündən etibarən quşları ürkütmüşdü. Artıq heç biri çay kənarındakı ağaclara qonmur, cividləşib şən mahnılar oxumurdu. Hətta balıqlar da əvvəlki kimi suyun üzünə çıxıb başlarını çıxartmır, gözə dəymirdi. Bütün heyvanlar harada səssiz, tənha yer tapsa, ora qaçmışdı.

Mətini ən çox kədərləndirən məsələ bu idi.

Lap balacalığından balıqları çox sevirdi. Məktəbdən sonra boş vaxtlarında çay kənarına gedər, həm balıqlara tamaşa edər, həm də yanında gətirdiyi çörək qırıntıları ilə onları bəsləyərdi. Balıqların danışa bilmədiyini və cavab verə bilməyəcəyini bildiyi halda onlarla söhbət etməkdən zövq alardı.

Çay suyunun əmələ gətirdiyi balaca bir göl olan Dəringölün yeri onun üçün tamamilə ayrı idi. Mətin üzməyi bu göldə öyrənmiş, ən yaxın dostları ilə bu göldə dostlaşmışdı. Kiçikliyindən bəri tanıdığı iri, xal-xal pulcuqlu, olduqca ağıllı alabalıq ilə, həqiqətən, əməlli-başlı dostlaşmışdı. Gölün kənarına gəlib:

- Xallı, bura gəl, xallı!- deyə səslənən kimibalıq gizləndiyi daşın altından çıxıb gələrdi. Bunu dostlarına da bir neçə dəfə göstərmiş və "Balığın da adı olar? Heç balıq da çağırılanda gələr?" deyənləri utandırmışdı.

Bir gün yenə Dəringölün yolunu tutdu. Bir də nə görsə yaxşıdır? Gölün yarısı daş və torpaqla doldurulub. Mətin o qədər kədərləndi, kefi pozuldu ki, oturub xeyli ağladı. Nəhəng iş maşınları gurultu ilə işləməyə davam edir,



quşları, balıqları ürkütdükləri yetmirmiş kimi, gölü də inşaatdan çıxan torpaq, qaya və daş qırıntıları ilə doldurmaqda idi.

Yadına dostu düşdü, təlaş və qorxu içərisində hıçqıra-hıçqıra çağırmağa başladı:

- Xallı, dostum, hardasan? Xallı!.. Ortaya çıx!.. Heç zarafatın yeri deyil, Xalııı!..

Gölün suyu bulanmışdı. Hər zamankı şəffaflığından əsər-əlamət qalmamışdı. Nə Xallı görünürdü, nə də başqa bir balıq.

- Xallını öldürdülər, - deyərək böyük bir maşının qarşısını kəsdi. Hiddətindən qıpqırmızı qızarmış, qaşlarını çataraq



yumruqlarını sıxmışdı. Havaya qaldırdığı yumruğu ilə onları hədələyərək:

- Qatillər! Balığımı öldürdünüz! – deyə qışqırdı.

Yanına balacaboy, gonbul, üzü-gözü tərləmiş bir adam yaxınlaşdı.

- Nə deyirsən, a bala? – deyə soruşdu.

Mətin hönkür-hönkür ağlayaraq bir əli ilə gölə işarə etdi:

- Gölü doldurdunuz, balığımı öldürdünüz.

Qarşısındakı adam Mətinin danışığına bir məna verə bilmədi. Bir az dayandı, gölə baxdı, sonra isə əlini havada yelləyərək:

- Uzaq dur burdan, işimiz-gücümüz var. Səninlə vaxt itirə bilmərəm! – dedi.

Mətin dayandığı yerdən tərpənmədi. Elə oradaca yerə oturdu. Qərarını vermişdi: gölün doldurulmasına mane olmalı idi.

- Getməyəcəyəm! – dedi. – Buradan bir yerə tərpənməyəcəyəm!

Mətinin yanına yaxınlaşan adam mühəndis idi. Oradakı işçilərdən iki nəfərə səsləndi:

- Bu uşağı buradan aparın, - deyə göstəriş verdi. İşçilər Mətini qucaqla-



rına götürdülər, onun ağlamasına fikir vermədən inşaat sahəsinin çölünə çıxardılar. Amma Mətin fikrindən dönmədi. İşçilər öz yerlərinə qayıdan kimi, o da daha əvvəl dayandığı yerə qaçdı. Uzanıb yerə yatdı və qışqırmağa başladı:

- Gölü doldura bilməzsiniz! Bu amansız maşınlarınıza imkan verməyəcəyəm!..

Bu səfər Mətini razı sala bilmək üçün xeyli söhbət etdilər. Amma Mətin danışılanların heç birinə qulaq asmadı. Ağlında təkcə Xallı və digər balıqlar var idi. Gözlərini qırpmadan Dəringölə baxaraq eyni sözləri təkrarlayırdı:

- Balığımı öldürdünüz!

Mətinin öhdəsindən gələ bilmədiklərini görüb kəndə xəbər göndərdilər. Başda kəndin icra nümayəndəsi Mustafa bəy və Mətinin atası olmaqla bütün kənd camaatı inşaat sahəsinə yığışdı. Çox dil tökdülər, yalvardılar, yola gətirməyə çalışdılar. Yenə də alınmadı.

- Balığımı öldürdülər, Xallımı öldürdülər!

Mustafa bəy yenə eyni sözləri dedi:

- Belə eləmə, ay bala, bu fabrik kəndimizə yol gətirəcək, su gətirəcək, elektrik gətirəcək. Qısaca, həyat gətirəcək!

Bu sözləri o qədər təkrarladı ki, axırda Mətin hövsələdən çıxdı:

- Amma çayı qurudur, balıqları öldürür, quşları ürküdür. Gölümüzü torpaqla doldururlar. Tarlalarınızı hansı su ilə sulayacaqsınız?

Balaca uşağın bu gözlənilməz sualı qarşısında Mustafa bəy donub qaldı, cavab verə bilmədi. Bir az fikirləşdikdən sonra Mətinə haqq verdi. Onları dövrəyə alan camaata səsləndi:

- Uşağın dediklərində həqiqət var. Fabrikin adını eşidib özümüzü, təbiətimizi yaddan çıxardıq.





- Həqiqətən də, belədir! Uşaq haqlıdır, - deyərək digər kəndlilər də onu təsdiq etdilər.

İndiyə qədər həqiqəti görə bilməyən Mustafa bəy peşman olmuşdu:

- Əl boyda uşağın gördüyünü biz necə də görə bilməmişik!..

Mətinin atası fəxrlə oğluna baxdı:

- Mənim oğlum çox ağıllıdır, - dedi.

Kənd camaatı mühəndisin yanına getdi. Bir-bir dərdlərini, narahatlıqlarını dilə gətirdilər. İcra nümayəndəsi də onları təsdiq edib tələblərini bildirdi. Mühəndis bir müddət fikirləşdikdən sonra belə bir təklif verdi:

- Çay boyunca bir divar hörək, - dedi. – Beləcə, çayı da, içindəki canlıları da qorumuş olarıq.

İşçilər və kəndlilər əl-ələ verib köməkləşdilər, uzun, yüksək bir divar hördülər. Artıq çaya torpaq tökülmürdü. Bir müddət sonra Dəringöl yenidən tərtəmiz oldu, əvvəlki kimi şəffaflaşdı. O zaman Xallı balıq da yenidən Mətinin səsinə cavab verdi, gizləndiyi daşın altından çıxaraq suyun üzünə qalxdı.

Göldəki canlılar öz həyatlarına görə sevgi dolu bir uşağa borclu olduqlarını bilirdimi, görəsən?

# SARP KEÇİDİ

Buludlar bozardı, rəngi get-gedə tündləşdi. Bir azdan qara buludlar bütün göy üzünü bürüdü. Balaca Əlinin atası bir az dayanıb nəfəs dərdi. Havaya baxdı.

- Yağacaq, - dedi, Əlinin anasına. – Sürətimizi artırmalıyıq. Hava tamam qaralmadan kəndə çatmalıyıq.

Anası başını yelləyib təsdiq etdi. Ayaqları qara bata-bata yeriməyə davam etdilər. Əlinin atası ən qabaqda gedirdi. Dizə qədər qarda yol açmağa çalışırdı. Ondan sonra anası, onun arxasınca da Əli gedirdi.

Çökək yerlərdə qar Əlinin boyuna qədər çatırdı. Düzü, çox yorulmuşdu. İki saatdan bu yana qarlı yolda getməkdən taqəti kəsilmişdi. Amma bunu ata-anasına hiss etdirmirdi. Onlar çevrilib baxanda gülümsəyir, güclü görünmək üçün addımlarını sürətləndirirdi.

- Kaş yola heç çıxmasaydıq, - atası dedi.





Bunu Əli də istəyərdi. Amma artıq çox gec idi. Çoxdan yola çıxmış, artıq yolun yarısına çatmışdılar. İndi iki kəndin ortasında idilər. Əslində, iki kəndin arası bir saatlıq yol idi. Amma qar yağdığı üçün iki saat yol getmələrinə baxmayaraq, hələ yarısına çatmışdılar. Qarda yerimək asan deyildi. Qaranlıq düşsə, bir də yenidən qar yağmağa başlasa, işləri daha da çətinləşəcəkdi. Hətta qar uçqunu təhlükəsi belə var idi. Buna görə də Sarp keçidindən keçərkən daha diqqətli olmalı idilər.

Sarp keçidi Əlini hər zaman ürküdürdü. Bura dik və yamacları çılpaq iki təpənin kiçik bir çayın kənarında başbaşa gəldiyi yer idi. Hər qışda buraya uçqun düşdüyünü, yoldan keçənlərin qar altında qaldığını eşidərdi. Hər dəfə bu xəbəri eşidəndə "o yamaclara ağac əkmək lazımdır" deyə düşünərdi. "Ağaclar əkilsə uçqun olmaz, insanlar da həlak olmaz".

Atasına baxdı. Ağ örtünün ortasındakı qara bir ləkə kimi görünürdü. Atasından xeyli geridə qalmışdı. Anası Əliyə ondan daha yaxın idi. O da atası qədər sürətli gedə bilmirdi. Ya da Əlini gözləyir, bilərəkdən sürətli getmirdi.

Düzünü desək, atası çox cəsur adam idi. Belə bir havada yola çıxdığına görə, həqiqətən də, cəsur adam idi.

- Biz kəndliyik, ay oğul, qarlı havaya öyrəşmişik, - demişdi. – Bircə yola çıxaq, kəndə çatmağımız iki saat çəkməz.

Lakin iki saat keçməsinə baxmayaraq, hələ yolun yarısına çatmışdılar. Qar da yenidən yağmağa başlamışdı. Kiçik çay görünmürdü. Yəqin ki, donmuşdu. Sürəti artırmaq, atasına çatmaq lazım idi. Hava tam qaralmadan kəndə çatmalıydılar.



Addımlarını yenicə sürətləndirmişdi ki, bir gurultu eşitdi. Arxasınca da anasının qışqırığı qanını dondurdu:

- Əhməəəd!...

Əhmədin tükləri biz-biz olmuşdu. Anasının nahaq yerə təşvişə düşməyəcək qədər güclü bir qadın olduğunu bilirdi. Deməli, çox ciddi bir hadisə baş verirdi.

Diqqətlə baxanda hər şeyi başa düşdü. Sarp keçidinə çatmışdılar. Uşqun düşürdü. Atası belinə qədər qara batmış, üstünə doğru sürətlə gələn qar yığınını saxlaya biləcəkmiş kimi əllərini qabağa uzadıb dayanmışdı.

Əli də var gücü ilə qışqırdı:

- Ataaa!..

Atasının səsini zorla eşidirdi:

- Yaxına gəlməyin!..

Uşqun atasının üstünə düşdü. Toz kimi havaya qalxan qar dənəcikləri ətrafa səpələndi. Əli bir müddət heç nə görə bilmədi. Uşqunun qarı havaya qaldıran toz buludu yatanda ortaya çıxan qorxunc mənzərə onları vahiməyə saldı. Qayalıqda dərin bir yarıq açılmışdı. Çılpaq yamac açığa çıxmış, dağın təpəsindən dərə dibindəki çaya qədər qara bir zolaq uzanmışdı. Əli isə qorxusundan anasına sarılmışdı.

Əli on dörd yaşında idi. Bəzən böyüdüyünü düşünər, buna görə sevinərdi. Amma indi özünü körpə bir uşaq kimi hiss edirdi. Əlindən heç nə gəlmirdi. Təkcə ağlaya bilirdi, hıçqıra-hıçqıra. Gözlərini də bərk sıxıb yummuşdu. Qarın ortasında açılan yarığa baxmaq istəmirdi. Anasının titrəyə-titrəyə nəfəs alıb-verməyini hiss edir, "Əhməd, Əhməd" deyə inildədiyini eşidirdi.

Eləcə dayanıb gözləyə bilməzdi. Nə isə eləməli idi. Özünü ələ alıb anasından aralandı.

- Kəndə gedib kömək gətirəcəyəm, - cəsarətlə dedi. – Sən burada gözlə.

Anasının cavab verməsini, "getmə" deməsini gözləmədən qaçmağa başladı. Bacardığı qədər sürətli getməyə çalışırdı. Arxasından anasının onu çağırdığını eşitdi, amma çevrilib baxmadı. Ağlında təkcə bir düşüncə var idi. Bir an əvvəl kömək gətirməli idi. İndi saniyələrin də böyük əhəmiyyəti var idi. Çünki hər saniyədə atası ölümə bir az daha yaxınlaşırdı. Tez kəndə çatmalı, birini tapmalı və atasını xilas etməli idi.

Gah batır, gah yumalanır, amma Əli uçaraq getdiyini zənn edirdi. Sanki buludların üstü ilə süzürdü. Nəhayət, bir evin qapısına çatdı. Bu ev ona tanış gəldi. Bəli, bu, Xəlil əminin evi idi;



kəndin girəcəyindəki ilk ev. Necə gəlib çatdığını heç özü də bilmirdi. İndi bunu fikirləşməyə vaxt yox idi. Yumruqlarını sıxdı, var gücü ilə qapını döyməyə başladı.

- Kimdir?

Bu, Xəlil əminin səsi idi. Əlinin ürəyi bir az daha sürətlə döyünməyə başladı.

- Qapını açın, əmi, kömək lazımdır!..

Xəlil əmi qapını açdı. Əli o gələnə qədər ayaq üstə dayana bilməmiş, yorğunluqdan diz çöküb yerə oturmuşdu.

- Atam, - dedi, titrək səsi ilə. - Atam... Sarp keçidində... Uçqun... Anam...

Bir cümlə qura bilmədən huşunu itirib yerə uzandı.

Gözlərini açanda ilk gördüyü mənzərə anasının gülümsəyən çöhrəsi oldu. Görəsən, həqiqətən gülümsəyirdi? Bəli, bu, o idi, həqiqətən gülümsəyirdi. Deməli...

- Atam, - Əli var gücünü toplayaraq dedi. Atasının aqibətini öyrənmək istəyirdi.

- Yaxşıdır, - anası dedi. – Mənim qəhrəman oğlum atasının həyatını qurtardı.

Xəlil əmi bütün kəndi ayağa qaldırmış, xərək də götürüb Sarp keçidinə getmişdilər. Hər kəsin canla-başla kömək etməsi sayəsində tez bir vaxtda uçqunun altından Əlinin atasını çıxartmış, həyatını xilas etmişdilər. Qarın altından çıxarılanda huşsuz halda idi, amma artıq özünə gəlmişdi.

Bunları eşidən Əli başını yana çevirdi. Sevinc göz yaşları yastığını isladırdı...



# DƏNİZ KƏNARINDA PİKNİK

Gözəl bir həftə sonu idi. Erol və Cəmilə ailələri ilə birlikdə dəniz kənarında piknik etməyə getmişdi. Gömgöy dəniz parlaq günəş altında parıldayırdı. Bacı-qardaş mənzərəni seyr etməkdən doya bilmir, dalğaların çıxartdığı səsləri böyük bir zövqlə dinləyirdilər. Quşların civildəşərək uçmağına baxan Cəmilə heyrətlə əllərini şappıldatdı:

- Qaqaş, ora bax, bir dənə də qarğa!

- Sənə dedim axı, Cəmilə, onlar qarğa deyil.

- Qağayı demişdin, hə, qaqaş, elə deyilmi?

- Bəli, elə demişdim.

- Hamısı da ağappaqdır. Necə də gözəldir. Kaş ki, qağayılar kimi mən də uça biləydim...

Erol bacısının bu arzusuna gülümsədi:



- Amma insanlar uça bilməzlər, elə deyil, Cəmilə?

Balaca qızın ümidi boşa çıxmış və kədərlənmişdi. Bunu görən qardaşı əlavə etdi:

- Bəli, insanlar uça bilməzlər, amma quşlar da bizim etdiyimiz bir çox şeyi edə bilməz. Yəni



insanlar digər bütün canlılardan daha üstün yaradılıblar. Bu səbəbdən insan olaraq dünyaya gəldiyinə görə şükür etməlisən.

- Yəni təşəkkür etməliyəm?

- Bəli, Cəmilə, təşəkkür etməlisən.

- Yaxşı, bəs kimə?

- Əlbəttə ki, səni yaradana.

- Yəni Allaha şükür edim deyirsən.

- Afərin, mənim ağıllı bacım!

Ailə böyükləri piknik sahəsində yeməkləri hazırlayarkən bacı-qardaş dənizə daha da yaxınlaşdılar. Dənizdən azca yüksəkdə olan bir təpənin üstünə çıxdılar. Ətrafda xeyli gözəl güllər var idi. Dəniz də sanki gömgöy xalça kimi ayaqlarının altına sərilmişdi. Bir az aşağıda əl-ələ tutmuş iki uşaq gördülər.

- Yəqin ki, onlar da bizim kimi qardaş-bacıdırlar, - Cəmilə dedi. – Hər halda gəzməyə gəliblər. Amma ata-anaları yanlarında görünmür. Böyüklərindən bu qədər aralanmaları düzgün hərəkətdir?

- Ən yaxşısı özlərindən soruşmaqdır, - Erol dedi. – Bir azdan öyrənərik.

Qız Cəmilədən daha balaca idi. Oğlan isə, demək olar ki, Erol ilə ya-



şıd kimi görünürdü. Onların yanına getdilər.

- Salam, - Erol dedi. – Biz də sizə qoşula bilərik?

Balaca qız Cəmiləyə baxıb gülümsədi. Amma böyük qardaş olduğunu düşündükləri uşaq sifətini turşutdu.

- Nə istəyirsiniz? - tərs-tərs baxaraqdedi.

- Heç nə istəmirik. Mənim adım Eroldur, bu da bacım Cəmilə. İstəsəniz, dostlaşarıq, birlikdə oynayıb əylənərik.

Balaca qız hələ də gülümsəyirdi. İncə bir səslə:

- Adım Nazlıdır, - dedi. - Bu da böyük qardaşım Yaşardır. Siz tək gəlmisiniz?

- Xeyr, - Cəmilə dedi, - valideynlərimizlə gəlmişik. Bəs sizin ailəniz haradadır?

Kiçik qızın gözləri birdən-birə yaşardı, doluxsundu:

- Yoxdu ki!..

Cəmilə ilk anda onun nə demək istədiyini başa düşə bilmədi. Ata-ananın olmaması necə mümkün ola bilərdi? Əvvəllər bunu heç düşünməmişdi. Hər



uşağın mütləq bir atası, bir anası olmalıdır, deyə bilirdi.

- Necə yəni? - təəccüblə soruşdu.

Yaşar daha çox dözə bilmədi. Bacısının qolundan çəkib onu susdurdu. Sonra da:

- Yoxdular! - deyə qışqırdı. - Keçən il yol qəzasında ikisi dəvəfat etdi. Sanki sizə çox maraqlıdır!..

Cəmilə boynunu bükdü. Çox məyus olmuşdu.

- Bilmirdim. Əgər qanınızı qaraltdımsa çox üzr istəyirəm. Sadəcə dostlaşmaq istəmişdim.

Yaşar çiyinlərini çəkdi və yenidən üzünü dənizə tərəf çevirdi. Ata və ana-

sı yadına düşmüşdü. Birlikdə necə də gözəl günlər keçirmişdilər. Buraya tez-tez gələr, yan-yana dayanıb dənizi, göy üzünü, qağayıları seyr edərdilər. Amma bir il idi ki, tənha qalmışdılar. İkisinə də xalaları baxırdı. Qarınları doyur, amma bu onlar üçün kifayət etmirdi. Sevgiyə ehtiyacları var idi. Çünki xala bütün sevgisini öz övladlarına verirdi. Düz-əməlli geyimləri də yox idi. Amma əllərindən heç nə gəlmirdi. İndi yanlarına yaxınlaşan bu gözəl geyimli uşaqlar onların halını başa düşərdi ki?!.. Onların ata-anaları sağdır, bilirlər ki, onları sevirlər. Heç olmasa, gəlib dərdlərini təzələməyəydilər.

- Gedin burdan!

Yaşar özünü saxlaya bilməyib qeyri-iradi qışqırdı. Elə bərk qışqırmışdı ki, az qaldı qorxudan Cəmilənin ürəyi getsin, cəld qardaşına sarılmışdı.

Erol yavaş-yavaş Yaşara yaxınlaşdı.

- Kədərlənmə, qardaş, - dedi. – Acını başa düşürəm. Bizim də keçən il nənəmiz vəfat etdi. Onu hamımız çox sevirdik. Ölüm Allahın əmridir, heç kim bunun qarşısında dayana bilməz. Amma bu ayrılıq sonsuz bir ayrılıq deyil ki?! Vəfat edən yaxınlarımızı axirətdə



yenidən görəcəyik. Yenidən onlara qovuşacağıq.

Yaşar qəfildən geri çevrildi:

- Bunu sənə kim deyib?

- Atam danışıb. İstəyirsinizsə, birlikdə gedək, sizə də danışsın.

Yaşarın gözləri sevincdən işıldamağa başladı:

- Mənim də atam belə deyərdi, - dedi birdən. – Amma yadımdan çıxmışdı. Sən deyəndə yenidən xatırladım. İçim az da olsa, rahatlaşdı. Xahiş edirəm, bizi atanın yanına apar. Ona qulaq asmaq istəyirəm.

Bacı-qardaşı aparıb ağacın altında oturan valideynləri ilə tanış etdilər. Hamısı birlikdə piknik stolunun ətrafında



oturdular. Erolun atası dedi ki, hər dəfə ata-anaları üçün darıxanda bildikləri bütün surə və duaları onlar üçün oxusunlar. Beləliklə, həm darıxmaqları keçəcək, həm də ata və analarına hədiyyə göndərmiş olacaqlar.

Dörd dost birlikdə yemək yedikdən sonra ayrıldı. Yaşar və Nazlı çox sevinmişdilər. Gözdən itənə qədər əl yellədilər.



# KABUS GƏMİ



Aprel ayı idi. Hava çox gözəl idi. Kapitan Hilmi erkən oyanmış, oyanan kimi də balkona çıxmışdı. Bunu hər gün edirdi. Səhərlər balkona çıxıb dənizə baxar, dənizin qoxusunu alardı. Havada fırtına qoxusu varsa, kefi pozular, hava gözəldirsə, kefi yerinə gələrdi.

Həmin səhər də əhvalı gözəl olmalı idi, çünki günəş dan yerindən boylanıb qırmızı şəfəqlərini ətrafa saçmış, səhərin ilk işıqları Mərmərə dənizini şirin-şirin işıqlandırmışdı. Dəniz gömgöy rəngdə, yenicə ütülənmiş yaylıq kimi hamar idi.

Amma qəribə olan bir məsələ var idi: dəniz kənarı çox izdihamlı idi. Sanki şəhərdəki hər kəs sahilə yığışmışdı. Böyük bir gurultu var idi. Hər kəs bağırıb-çığırır, ağız deyəni qulaq eşitmirdi. Kapitan Hilmi buna çox da əhəmiyyət vermədi. On beş yaşlı oğlunu oyatmaq üçün içəri girdi.

- Qalxmaq vaxtıdır, cavan oğlan, gecikirik. Balığa erkən çıxmaq lazımdır.

Hava da əsl balıq havasıdır.

Mustafa dərhal çarpayısından qalxdı. Birlikdə qəlyanaltı edib sahilə getdilər. İzdiham hələ də dağılmamışdı. Kapitan Hilmini görən bir neçə nəfər dərhal onun yanına gaçdı:

- Kapitan! Kapitan!..

- Nə olub? Bu nə hay-küydür? Maşallah, şəhərdə adam qalmayıb, hamı buradadır.

Adamlar təngnəfəs halda danışmağa başladılar. Sən demə kapitan Sadiqin balıqçı gəmisi dünən gecə batıbmış. Gəmidəkilər öz həyatlarını güc-bəla ilə xilas etmişdilər. Dediklərinə görə, gecə qatı duman çökmüş, bu zaman dumanın içindən böyük bir yelkənli gəmi çıxmışdı. Lap qədim zamanlardakı gəmilərə bənzəyən bu nəhəng gəmi balıqçıların gəmisini batırdıqdan sonra gözdən itmişdi.

Adamlar həyəcanla danışmağa davam edərkən kapitan Hilmi:

- Belə şey olar? – deyərək onların sözünü kəsdi. – Yəqin ki, xəyal görüblər!

Qəzadan sağ çıxan dənizçilərdən birinin təşviş və qorxu içində danışdıqları daha inandırıcı səslənirdi. Qorxudan tir-tir əsirdi. Dediyinə görə, anidən hava tutulmuş, hər tərəfi sis bürümüşdü. Birdən-birə yelkənli gəmi ortaya çıx-



mış, sonra yelkənli gəmi ilə birlikdə sis də yoxa çıxmışdı. Özü isə bir taxta parçasının köməyi ilə xilas ola bilmişdi. Elə qorxmuşdu ki, daha heç vaxt dənizə girə bilməyəcəyini deyirdi.

- Həqiqətən gördüm, kapitan, kabus gəmini gördüm, - deyərək sözlərini bitirdi.

Kapitan Hilmi babasından eşitdiyi bir söhbəti xatırladı. O da bir zamanlar belə bir kabus gəmidən bəhs etmişdi. Yadında bu qədəri qalmışdı ki, eynilə indi danışıldığı kimi, birdən-birə hər tərəfi duman bürüyür, bu dumanın ortasında kabus gəmi görünür və dənizçiləri götürüb gedir.

Bu hadisə kapitanın düşüncələrini alt-üst etmişdi. Dənizə çıxmaq üçün gəmisini hazırlayarkən də bu haqda fikirləşirdi. Köməkçiləri isə qorxurdu. Bir neçəsi həmin gün dənizə çıxmağa etiraz etsə də, kapitan Hilmi onlara qulaq as-



madı:

- Mən boş cəfəngiyyata inanmıram! Bu gün əsl balıq tutmaq havası var. Kabus gəmi nədir? Belə söhbətlər məni qorxutmaz!

Cəsur olmağına cəsur idi. Amma içində bəzi narahatlıqlar da yox deyildi. Belə ki, balıqçının dedikləri babasının danışdıqları ilə üst-üstə düşürdü, bu da insanı vahiməyə salırdı.

Yenə də fikir vermədi. Hazırlıqlarını tamamlayıb dənizdə üzməyə başladılar. Günortadan sonraya qədər heç nə baş vermədi. Köməkçiləri də rahatlaşmış, başları öz işlərinə qarışmışdı.

Axşama yaxın hava birdən-birə tutuldu. Köməkçilərdən biri həyəcanla qışqırmağa başladı:

- Duman gəldi! Duman gəldi!

Kapitan Hilmi öz kayutundan diqqətlə

ətrafa nəzarət edirdi. Havanın tutulmasını heç gözləmirdi, amma anidən ortaya çıxan duman hər tərəfi bürümüşdü. Yoxsa, danışılanlar gerçək idi?!..

- Torları çəkin! – deyə əmr verdi.

Elə o an Mustafanın fəryadı eşidildi:

- Kabus gəmi!..

Mustafa özü də danışılanların gerçək olasına inana bilmirdi. Dumanın ortasında getdikcə böyüyən qaraltını gördüyü zaman dəhşətə gəlmişdi. Çevrilib qaçmaq istəsə də, hərəkət edə bilmirdi. Eləcə dayanıb yelkənli gəminin nə edəcəyini gözləyirdi.

Dumanın ortasından nəhəng bir yelkənli gəmi peyda olmuşdu. Görünüşü həqiqətən də qorxunc idi. Düz üstlərinə gəlirdi. Külək yox idi, amma yelkənli gəmi böyük bir şar kimi şişmiş, yüksək sürətlə onlara yaxınlaşmaqda idi.

- Mühərriki işə salın, tam sürətlə irəli! – deyə kapitanHilminin səsi eşidildi.

Bir az da geciksəydilər, gəmilər toqquşa bilərdi. Canlarını yaxşı qurtarmışdılar.

Kapitan Hilmi dərhal öz kayutuna getdi. Balıqçı tüfəngini qamarlayıb göyərtəyə çıxdı. Kabus gəmini nişan alıb tətiyə basdı. Yoğun duman yavaş-yavaş dağılmağa başladı. Ətrafda özlərindən

başqa heç kim yox idi. Kabus gəmi isə yoxa çıxmışdı. Kapitan dərin bir nəfəs aldı:

- Çox şükür, xilas olduq, - dedi.

Torları dənizdən yığışdırıb sahilə qayıtdılar. Kabus gəmidən qurtulan ilk gəmi kapitan Hilminin gəmisi oldu.

Kabus gəminin aqibətinin nə olduğu sirr olaraq qaldı. Bu sirri nə kimsə tapa bildi, nə də üstünü açan oldu. Yaddaşlarda təkcə onun haqqında danışılan əfsanə qaldı. Həttabu gün də balıqçılar həmin əfsanəni bir-birinə danışmağa davam edirlər...



# XEYİRSİZ XEYRİ

Yaxşı ki, heç bir uşaq Xeyri kimi deyil. Adı Xeyri idi, amma adının ona heç bir təsiri yox idi. Belə bir adı olan uşağın hər zaman xeyirli iş görməsini, yaxşılıq etməsini gözləməzdiniz? Amma bizim Xeyri belə biri deyildi. O, xeyirsizin biri idi. Təkcə öz mənafeyini düşünən eqoist bir uşaq idi.

Heç kəs ondan heç nə istəməz, kömək gözləməzdi. İstəsəydilər də verməyəcəyini, əsla yardım etməyəcəyini bütün sinif çox yaxşı bilirdi.



Bir dəfə parta yoldaşı Fəridin silgisi itmişdi. Tərs kimi, elə imtahan günü idi. Nə qədər axtarsa da, tapa bilməmişdi. Səhv yazdığı bir cavabı silməsi lazım idi. Əlacsızlıqdan ağlayası olmuşdu. Xeyridən istəməkdən başqa yolu qalmamışdı. Qərara aldı

ki, çox kübar bir şəkildə müraciət etsin.

- Bir dəqiqəliyə silgini götürə bilərəm, Xeyri? – deyə pıçıldadı.

Xeyrinin silgisi düz qabağında, partanın üstündə idi. Üstəlik özü də tez-tez Fəridin kağızına boylanır, ondan köçürməyə çalışırdı. Belə olmasına baxmayaraq, yenə də silgini verməmişdi.



- Mənə nə, - demişdi,saymazyana baxaraq, - öz silgini işlət.

Fərid bir yandan gözucu müəllimə diqqət edir, onlara baxıb-baxmadığından ehtiyatlanır, bir yandan da əlacsızlıqdan danışmağa davam edirdi:

- Olsaydı, səndən istəməzdim. İtirmişəm.

- İtirməyəydin. Hər qoyun öz ayağından asılar. Silgi mənə lazımdır, - deyərək bəhanə gətirmiş, Fərid nə qədər dil töksə də, silgini verməmişdi. Bundan əlavə, onların pıçıldaşdığını eşidən müəllim

Fəridin imtahan vərəqini götürmüş, qiymətini kəsmişdi.

Xeyri bu dərəcədə eqoist adamdır.

Halbuki kimsə yardımlaşmaqdan danışsa, o da ortaya atılar, çoxbilmiş kimi danışar, özündən razı halda məsləhətlərini sadalayardı:

- Oyuncaqlarımızı dostlarımızla paylaşmalıyıq, balacaları qorumalıyıq, yaşlılara kömək etməli, yeri gəlsə onların zənbillərini daşımalıyıq, tək almamız varsa, onun yarısını dostumuza verməliyik, yolun ortasında bir daş görsək, onu götürüb kənara qoymalıyıq...

Danışmağına belə danışardı, amma dediklərinə nə özü inanar, nə də bunları həyata keçirərdi.

O boyda sinifdə bircə dostu var idi: Xəlil. İkisi bir-birinə çox bənzəyirdilər. Çünki Xəlil də təkcə öz mənfəətini güdən, eqoist uşaq idi. Bu xasiyyətləri səbəbi ilə əslində onlar da tez-tez küsər, amma dərhal barışardılar. Hər ikisi də bir-birinə möhtac olduqlarını yaxşı bilirdi. Çünki sinifdə heç kim onlarla yoldaşlıq etmək istəmirdi.

Fevral ayında hər yerin ağappaq qara büründüyü günlərdən biri idi. Məktəbdə tətil olduğuna görə uşaqlar bol-bol qartopu oynayır, qar adam düzəldir, xizəklə sürüşürdülər. Bütün uşaqlar doyunca əylənirdilər. Amma qarın çox yağmasının başqa nəticələri də olmuşdu. O qədər çox qar yağmışdı ki, binaların girişi yarıya qədər qar ilə örtülmüşdü.

Eyni küçədə yaşayan Fevzi, Fərid, Həsən və Mustafa sözü bir yerə qoyub; növbə ilə evlərinin qabağını təmizləməyi qərara aldılar. Çünki gec təmizləyəndə yağan qar donub bərkiyir, buza çevrilib yolu sürüşkən edirdi. Bu, çox təhlükəli idi. Biri sürüşüb yıxıla bilər, Allah qorusun, əliayağı sına bilərdi.

Fevzi ilə qonşu binada yaşayan Xeyrini də, gəlməyəcəyini bilə-bilə, köməyə çağırdılar. Amma Xeyri hər zamankı kimi bəhanə gətirdi:

- Tanımadığım insanların yıxılmasının mənə nə dəxli var?! – deyərək gəlmədi.

Digər uşaqlar əl-ələ verib Həsənin evindən başlayaraq növbə ilə qarı kürüdülər, binaların qabağı-





nı təmizləməyə başladılar. Birlikdə Fəridin, Fevzinin və Mustafagilin evlərinin qabağını da tərtəmiz etdilər.

Beləcə, o küçədə qabağında qar yığını yığılıb qalan tək ev Fərid ilə Mustafagilin yaşadığı binaların arasında qalan Xeyrigilin evi oldu. Digər uşaqlarla birlikdə o da təmizliyə qoşulsaydı, indi onların evlərinin önü də tərtəmiz olacaqdı. Amma tənbəllik etmiş, işə əlini vurmamışdı. Üstəlik digər uşaqlar soyuqda iş görərkən onlara istehza etmiş, qartopu ataraq ələ salmışdı.

- Sizdə heç ağıl yoxdur! Bir azdan yenə qar yağmağa başlayacaq, boş



yerə tə-
mizləyirsiniz, - deyib gülmüşdü.

Amma uşaqlar ona fikir verməmiş, qar yenə yağsa, yenidən təmizləyəcəklərinə qərar vermişdilər. Onlar faydalı bir iş gördükləri üçün sevinirdilər. Yoldan keçən insanlar da onların hərəkətələrini təqdir edir, razılıq bildirirdilər.

- Afərin uşaqlar! – deyirdi, böyüklər.

Xeyri bu təşəkkürləri eşitdikcə onlara paxıllığı tuturdu. Artıq təkcə qartopu atmaqla kifayətlənmir, onların təmizlədikləri yerə qar ataraq doldumağa başlamışdı. Nəhayət tutduğu işdən bezdi, bir kənarda oturdu. O oturanda uşaqlar onun qar atdığı yerləri yenidən təmizlədilər.

Hava qaralmağa başlamışdı. Fevzi, Fərid, Həsən və Mustafa işlərini bitirəcək, evlərinə getməyə hazırla-

şırdılar. Gözucu Xeyriyə baxdılar, o da öz evinə doğru qaçırdı.

Nə oldusa, elə bu anda oldu. Birdən ayağı sürüşdü və Xeyri təmizləmək istəmədiyi qarlı yolun üstünə sərilib yerə yapışdı. Acı bir qışqırıq eşidildi. Uşaqlar onun kələkbazlıq etdiyini düşünüb fikir vermədilər. Amma Xeyrinin ah-naləsi hələ də davam edirdi. Ətrafda heç kimi olmadığını görən uşaqlar yaxınlaşıb nə baş verdiyini öyrənmək qərarına gəldilər.

Sürətlə onun yanına getdilər. Xeyrinin sifəti ağrıdan büzüşmüşdü. İki əli ilə ayağını tutub fəryad qoparır, ağlayırdı:

- Nə oldu, niyə ağlayırsan? – Fərid soruşdu.

- Kömək edin, - Xeyri dedi. – Deyəsən, ayağım sınıb.

- Nə danışırsan? – Mustafa dedi. – Məncə sənin ayağın sınmaz. Axı sən öz canına çox diqqət edənsən. Bir bax, əziyyət olar deyə heç evinizin qabağını da təmizləməmisən.

Yox, uşaq həqiqətən də ağlayırdı.

- Nə olar, kömək edin...

- Sənin yıxılmağının bizə nə dəxli var, - Həsən dedi. - Hər qoyun öz ayağından asılar deyən sən deyildin? İndi öz işini özün həll et.

Fərid daha çox dözə bilmədi. Nə də olsa, Xeyri də bir insan idi. Xətaları var idi, yaramazlıqları da, amma yenə də o da bir insan idi. Yazığı gəlib dedi:

- Uşaqlar, gəlin kömək edək!

Güclərini birləşdirdilər, əl-ələ verib Xeyrini yerdən qaldırdılar və evinə apardılar. Ata-anası evdə yox idi, alış-veriş üçün bazara getmişdilər. Onlar qayıdana kimi uşaqlar Xeyrinin yanında dayanıb gözlədilər.

Çox şükür ki, ayağı sınmamışdı, təkcə burxulmuşdu. Amma Xeyrinin eqoistliyindən əl çəkib xeyirsevər bir uşağa çevrilməsi üçün belə lazım imiş. Başına gələnlərdən lazımınca dərs götürdü və yaxşı bir dost olmaq üçün əlindən gələni edəcəyinə söz verdi.

# BİRLİKDƏ

Məhəllədəki uşaqların hamısı oyun parkının yanındakı boş sahəyə yığışmışdı. Oqtayın nə deyəcəyini gözləyirdilər. O çağırmışdı. Dəstənin başçısı o idi. Gəlməsəydilər, döyə bilərdi. Uzun boyu və iri cüssəli görünüşünə görə bütün üşaqlar ondan çəkinirdi. Qol əzələləri elə şişmişdi ki, az qalırdı pencəyinin qollarından pırtlayıb çıxsın.



- Bu Osman var e, uşaqlar, - deyərək danışmağa başladı.

- Hansı Osman? – uşaqlar hamısı bir ağızdan soruşdular.

Oqtay ağzındakı saqqızı şişirdib partlatdıqdan sonra başı ilə yan tərəfdəki binaya işarə etdi:

- Məhəlləyə yeni köçən Osman, - dedi. – Tanımırsınız?

Birlikdə başlarını yırğalayıb cavab verdilər:

- Bəli, tanıyırıq. Nə olub ki, Osmana?

Oqtay tərbiyəsiz bir şəkildə yerə tüpürdü, burnunu çəkib dedi:

- Hələlik heç nə olmayıb, amma yaxında ağzını-burnunu dağıdacağam!



Kimsə səsini çıxartmadı. Yenə də səbəbini bilmək istəyirdilər: görəsən, aralarında nə baş verib? Niyə Osmana bu qədər nifrət edir? Halbuki məhəllədəki uşaqların hamısı onu elə ilk gündən sevmişdi. Heç bir pisliyini də görməmişdilər. Amma çox təəssüf ki, Oqtayın qərarlarına qarşı səslərini çıxara bilmirdilər. Etiraz edənin ağzına dəmir kimi yumruğunu yapışdırardı.

Hər kəs səssizcə bu danışığın nəticəsini gözləməkdə ikən arxa tərəfdə dayanan uşaqların arasından zəif bir etiraz səsi eşidildi:

- O uşaq sənə nə edib ki?

Oqtay dərhal səs gələn tərəfə çevrildi. Ayaqlarının ucuna qalxıb danışan uşağı tapdı. Bilal idi. Balaca, cılız Bilal. Kimsəsiz uşaq. Atası iki il əvvəl vəfat etmiş, anası ilə təkbaşına qalmışdı. Üstübaşı da nimdaş vəziyyətdə idi. Şalvarının dizlərində isə yamaq var idi.

Bütün uşaqlar Oqtayın qəzəblənməsini, hirsindən qudurub Bilalı döyməsini gözləyirdilər. Amma hər kəs heyrət içində donub qalmışdı: Oqtay hirslənməmişdi. Bəlkə də, Bilal çox cılız, zəif və olduqca kasıb uşaq olduğu üçün dəymədi, deyə düşündülər.

- O çoxbilmiş uşaq mənə heç nə edə bilməz, - Oqtay qışqıraraq dedi, - sadəcə əsəblərimə toxunur. Niyə deyəcəksiniz, atası jurnalist olduğuna görə özünü elə yuxarıdan aparır ki, heç kəsi bəyənmir.

- Heç də sən deyən kimi deyil, - Bilal ona etiraz etməyə davam edirdi. – Əslində, Osman çox yaxşı dostdur. Hamımızla çox gözəl münasibəti var.

- Yaxşılığı özünə qalsın! – Oqtay bir az qızışdı. – Aramızda belə "ana uşağı"

görmək istəmirik. Onu bu məhəllədən qovmalıyıq, - dedi və Bilala bir az da yaxınlaşdı. Onu tənbeh etməyə başladı: - Yaxşı, bəs sən niyə onu müdafiə edirsən? Bilalın vəkilisən?

- Əlbəttə ki, xeyr. Onun vəkilə ehtiyacı yoxdur, özü çox gözəl danışa bilir.

Oqtay istehza ilə dedi:

- Səninlə də söhbət edib?

- Bəli, dünən birlikdə oynamışıq.

- Dəqiq bilirəm ki, atasının necə mühüm adam olduğunu danışıb.

- Xeyr, heç atasının adını da çəkmədi. Doğruluqdan, dürüstlükdən danışdı. Uşaqların da vəzifələri var imiş. Ətraf mühitə zərər verməməli və yaşlılara kömək etməliyik, dedi.

- Sus! – Oqtay daha sərt tonda qışqırdı. – Səni də özünə inandırıb. Bir kəlmə də danışsan, çənəni dağıdaram!

Bilal susdu. Qorxmuşdu. Oqtaya gücünün çatmayacağını bilirdi. Onun susması digər uşaqlara da təsir etdi. Pıçıldaşmağa və əl-qol işarələri ilə bir-birini anlamağa çalışdılar. Oqtay nə demək istəyirdi? Güclü olduğu üçün hər kəsə əmr verməyə, daim onları qorxutmağa nə haqqı var idi? Niyə ona tabe olmalı idilər? Həm də ki, Osman, həqiqətən, yaxşı uşaq idi. Ağırbaşlı, dürüst və



səxavətli idi. Hər zaman verdiyi sözü tutardı. Ailəsi də yaxşı insanlar idi. Atası bu məhəlləyə köçən kimi Bilalın ailə vəziyyətindən xəbər tutmuş, əri vəfat etdiyi üçün anasına təqaüd düzəltdirmişdi. Rəcəbin babasına təmənnasız ərizə yazmış, bütün sənəd işlərinə kömək etmişdi. Piyada səkilərində xarab olan yerləri düzəltdirmişdi.  Daha nə etməli idi?

Bu səfər Rəcəb hərəkətə keçdi. Oqtayın qarşısında dayanıb onunla gözgözə gəldi:

- Haqsızlıq edirsən, - dedi. - Nə Osmandan bir pislik gördük, nə də ailəsindən. Özünü çox təkəbbürlü apardığını deyirsən, amma biz belə bir hərəkətini görmədik. Hamımızla çox mehriban danışır.

Oqtay çaşıb qalmışdı. Rəcəbə nə olmuşdu? İndiyə kimi heç səsi çıxmaz, nə desə, yerinə yetirərdi.

- Babanın sənəd işlərini düzəltdi deyə onun tərəfini saxlayırsan.

İndi də Mehmet qələbəliyin arasından irəli çıxdı:

- Nə mənim bir qohumuma köməklik göstərib, nə də yolu düzəltdirməyi vecimə deyil! Amma Osmanın ailəsi yaxşı insanlardır. Onlardan nə istəyirsən?

Bu danışıqlardan cəsarət alaraq digər uşaqlar da bir ağızdan etiraz etməyə başladılar. Daha Oqtayın səsi çıxmırdı. Bir belə uşağın öhdəsindən gələ bilməzdi. Artıq dəstə başçılığı ünvanını itirmişdi. Yumruqlarını sıxıb:

- Görərsiniz! – dedi.

Buna baxmayaraq, heç vaxt heç nə edə bilmədi. Tək-tək bütün uşaqlara hədə qorxu gəlsə də, uşaqlar haqlı olduqları bir mövzuda birlik nümayiş etdirdikləri üçün özü qorxuya düşmüşdü.

Məhəllədəki uşaqların hamısı bu birlik və bərabərlikdən sonra Osmanı özlərinə yeni lider seçdilər və hər zaman yaxşı işlər gördülər.

# ƏN SEVİMLİ BAYRAM

Zibil konteynerlərindən topladığı kağızları əlindəki torbaya doldurdu. Torba nağara kimi şişdikcə kefi yerinə gəlirdi. Üç addım geri gedib şişən torbasına baxdı, fikrində ölçübbiçdikdən sonra:

- Təxminən on kilodan çox olar, - dedi. – Aparıb Əhməd əmiyə təhvil versəm, cibimdə beş manat nağd olar.

Torbanı belinə götürdü. Xeyli ağır idi.

- Bəli, on kilodan ağır olar, - bir daha öz-özünə dedi.

Bir ildir ki, bu işlə məşğul idi. Kağız, şüşə qırıqları, tullantı naqillər və dəmir parçalarını toplayır, aparıb yenidən emal yerlərinə satırdı. Qazandığı pul təkcə qarnını doyurmaq üçün kifayət edirdi. Amma paltarları gün keçdikcə köhnəlirdi. Şalvarının dizləri siyrilmiş, pencəyinin tikişləri sökülməyə başlamışdı. Üstəlik çirk-pas içində idi. Bəzən av-

tobusa minəndə bir küncə qısılar, təmiz geyimli insanlara toxunmamağa çalışardı. Bir dəfə kürklü bir qadına qəfil toxunmuşdu. Qadın təkcə onun üstünə qışqırmaqla qalmamış, ata-anasına da dil uzatmışdı. Mustafa buna dözə bilməmiş, oturub ağlamışdı. Əlbəttə, qadın bilmirdi ki, onun valideynləri vəfat edib, dünyada təkbaşına, yalqız qalıb. Bilsəydi, yəqin ki, belə qışqırıb-bağırmazdı.

Buna baxmayaraq, heç bilmək olmur, insanların yaxşısı da var, pisi də... Məsələn, Əhməd əmi yaxşı insan idi. İmkanlı deyildi, amma yenə də yaxşı adam idi. Qəlbi tərtəmiz idi. Bəzən dəyərindən də artıq verərdi. “Gələn səfər hesabdan tutarıq”, - deyər, amma heç vaxt verəcəyi puldan kəsməzdi.

Əhməd əmi ilə də elə həmin avtobusda tanış olmuşdu. O ağlayarkən Əhməd əmi yanında dayanmışdı.

- Əhəmiyyət vermə, - demişdi, - ağlamaqla nə əldə edəcəksən? Elə bilirsən sən ağlayanda onun daş qəlbi yumşalacaq?!

Mustafa maraqla başını qaldırmış, yaş dolu gözlərlə qarşısında dayanan əminin üzünə baxmışdı. Əlli yaşlarında olan bu əmini elə oradaca sevməyə başlamışdı. Bəlkə də, atasına çox bənzədiyi üçün ürəyinə dərhal yatmışdı.



- Gəl, oğlum, - deyərək əlindən tutanda Mustafanın ürəyi həyəcanla döyünmüşdü. “Oğlum” deməsi, əlindən tutması çox xoşuna gəlmişdi. Avtobusdan düşəndə də birlikdə onun iş yerinə - tullantı məhsullarının yenidən emalı üçün yığıldığı dükana getmişdilər.

Qalaq-qalaq kağız yığınlarının qoyulduğu yeri göstərmiş:

- Burada yata bilərsən, - demişdi, Əhməd əmi. – Heç soruşmadım, adın nədir?

- Mustafa.

- Ailən, kimin, kimsən yoxdurmu?

- Xeyr. Atamla anam bir yol qəzasında vəfat etdilər. Keçən il.



- Bəs nə ilə dolanırsan?

- Eh, - çiynini çəkib belə demişdi.

- Necə yəni "eh"? Eh ilə dolanmaq olar? Bax, mən işlənmiş, tullantı malları yığıb onların satışı ilə məşğul oluram. Kağız, şüşə, dəmir, mis, naqil, sellofan, plastik qablar hər nə gətirsələr. Sənin yaşındakı bir çox uşaq tullanmış əşyaları gətirib mənə satırlar. Beləcə, qəpik-quruş da olsa, qazanırlar. Amma evindən xəbərsiz qaçıb gələnlərə çörək vermərəm, bunu da bilmiş ol. Evdən qaçdığını öyrənsəm, qulağını kəsərəm! Razılaşdıq?

- Razılaşdıq.

O gündən bəri Əhməd əmiyə tullantı kağız, dəmir-dümür toplayırdı. Ata-anası sağ olsaydı, bu il yeddinci sinfə gedəcəkdi. İndi isə oxumağına imkan yox idi. İşləməsə, ac qalardı. Üstündəki nimdaş paltarları da ala bilməz, çılpaq qalardı.



- Oho!.. Mustafa bəy!.. Gəlmisən?.. – Əhməd əminin səsi gəldi. Səsindən sevgi saçılırdı. Ona həmişə “Mustafa bəy” deyirdi. Arabir kefi kök olanda arxasına “paşa” da əlavə edər, “Mustafa Paşa bəy” deyərdi.

Səsi eşidəndə diksindi. Bu qədər yolu necə tez gəldiyinə özü də çaşmışdı. Bəlkə də, xəyallara dalıb çox sürətli yerimişdi. Yorğunluğu hələ indi hiss edirdi; üzü qızarmış, alnından tər süzülürdü.

Torbanı çiynindən yerə qoydu. Özünü bir küncə atıb oturdu.

- Gəldim çatdım, Allaha şükür, Əhməd əmi, - təngnəfəs halda dedi. – Əvvəla bir çək görək, torbam neçə kilo gəlir? Məncə, on kilonu keçməlidir.

Əhməd əmi torbanı tərəziyə qoydu. Gülümsədi:

- Düz on beş kilo gəldi, Mustafa Paşa bəy! – dedi. – Təxmin qabiliyyətinə görə sənə sıfır düşür.

Stolun başına keçdi. Haqqı olan pulu saydı. Pulu ona uzadanda gülümsədi.

- Sabah nə günüdür, tap görüm?

Mustafa təəccüblə baxıb qaldı, heç nə başa düşmədiyini bildirmək üçün başını yırğaladı.

- Bayram deyilmi, köftəxor? Sabah Ramazan bayramıdır!

Mustafanın gözləri yaşardı. İlk dəfə bir bayramı anasız, atasız və evsiz keçirəcəkdi. İndiyə kimi bunu heç ağlına gətirməmişdi.

- Tərpən, - Əhməd əmi səsləndi, - dükanı bağlayırıq. Bu gecə dükanda yatmaq yoxdur.

Birdən səksənərək dedi:

- Niyə ki, Əhməd əmi? Mən hara gedim, harada yatım?

Mənalı-mənalı onun gözlərinin içinə baxan Əhməd əmi:

- Bundan sonra burada yatmayacaqsan, - dedi. – Bizdə qalacaqsan.

Sonra Mustafaya bir az da yaxınlaşıb:

- Oğlum olarsan? – dedi. – Bilirsənmi, mənim heç övladım olmadı. Xanımım da, mən də səni çox sevdik. Həqiqətən başına gələnləri araşdırdıq, danışdıqlarının doğru olduğunu öyrəndik. Nə

deyim, ilk əvvəl dediklərinə şübhə ilə yanaşmışdım. Bəzi uşaqlar o qədər çox yalan danışırlar ki, mən də sənə inana bilmədim. Artıq nə baş verdiyini bilirəm. Sənin də çox yaxşı uşaq olduğuna əminəm. Nə deyirsən, mənim övladım olarsanmı? "Bəli" desən, inan ki, ailəcə çox xoşbəxt olarıq.

İsti bir yuva, bir ata, bir ana... Başqa nə arzusu ola bilərdi? Boynuna sarıldı:

- Atacan!..

Bir ildən bu yana ilk dəfə bu kəlməni birinə deyirdi. İlk dəfə idi ki, çox qiymətli bir bayram hədiyyəsi alırdı: ailə!

Dükanın içində ikisi də bir-birinə sarılmış halda sevinc içində ağlayırdılar.



# FİTRƏ

Bayram ərəfəsi idi. Anası bayram paltarı adı ilə oğlu Fatehin pencəyini yamayırdı. Fateh isə "pencəyin yamaq vurulacaq yeri qaldı ki?" deyə fikir çəkirdi. Üstəlik əyninə də gəlmirdi, xeyli gödəlmişdi. Amma yenisini almağa imkanları yox idi.

Fatehin on üç yaşı vardı. Maddi vəziyyətlərinin yaxşı olmadığının fərqində idi. Əgər atası anidən vəfat etməsəydi, onun da Əli kimi, Murad kimi, Mehmet kimi təptəzə pencəyi ola bilərdi. Hətta təptəzə şalvarı, ayaqqabıları, bəlkə də qalstuku...



Fateh oturduğu yerdən anasını seyr edərkən ağlına dostu Əlini gətirdi. Görəsən, onun bayram paltarı necə olacaqdı? Yəqin ki,

qalstuku da olacaq. Çünki o, bayram günləri xaricində də qalstukla gəzməyi xoşlayır. Həm də hər gün yeni bir qalstuk. Fateh bunun lovğalıq üçün olmadığını bilirdi, çünki Əli yaxşı uşaq idi. Yenə də, hər gün qalstuk dəyişdiyi kimi, hər həftə paltarını da bir neçə dəfə dəyişdirirdi. Gözəl geyinməkdən zövq alırdı. "İmkanı olduqdan sonra niyə də geyinməsin", - deyə Fateh düşündü. Bunu düşünəndə qeyri-ixtiyari olaraq alçaq səslə ah çəkdi.

Sabah bayram olduğunu fikirləşdikcə kövrəlirdi. Yamaqlı şalvarı və yamaqlı pencəyi ilə bayram günü meydana necə çıxa bilərdi? Hər kəs göz oxşayan təzə paltarlar geyinəcəkdi. Əligil, Muradgil, Mehmedgil, Həsəngil, atası olan hər kəs. Onun isə atası yox idi. Üç il əvvəl vəfat etmişdi. Anası kimi"axirətə yola saldıq", deyərdi. "Öldü" deməyə dili gəlməzdi. Fateh artıq belə danışmağa öyrəşmişdi.

Atası yaşasaydı, işləyər, ailəsinə təzə paltarlar alardı;əvvəllər olduğu kimi. Heç bir bayram günü evinə əliboş qayıtmazdı.

Fatehin bacısının da təzə paltarları qalmamışdı. Yamasın deyə

corablarını anasına vermişdi. Fateh çox istəyərdi ki, öz corabını bacısına hədiyyə versin. Bundan çox böyük sevinc hiss edərdi. Çox gözəl bayram hədiyyəsi olardı. Amma, əlbəttə, corabdan hədiyyə olarsa.

Qaş qaralmış, axşam olmuşdu. Fateh ürəyində dua etdi ki, sabah yağış yağsın. Beləcə, heç kim küçəyə çıxmayacaq, uşaqlar gözəl-gözəl paltarlar geyinib başqalarına göstərə bilməyəcəkdi. Təzə paltarlar küçəyə çıxarılmayacağına görə, Fatehin yamaqlı paltarları da heç kəsin diqqətini cəlb etməyəcəkdi.

- Anacan, sabah yağış yağarmı, görəsən?

Anası gözünü iynə-sapdan ayırmadan cavab verdi:

- Allah bilər, oğlum.

Səbəbini bilmirdi, amma anasını tikiş tikərkən seyr etmək Fatehin çox xoşuna gəlirdi. Sevincli olmadığını bilirdi, amma yenə də, anası hər zaman gülümsəyərdi. İki uşağına baxa bilmək üçün çox vaxt ac yatardı. Üstəlik, ev sahibi də digər tərəfdən onları narahat edirdi. İki aylıq kirayə pulunu gecikdirdikləri üçün bayramdan son-



ra evdən çıxaracağını demişdi. Bura evdən daha çox balaca bir komaya bənzəyirdi. Yenə də Fateh öz yuvalarını sevirdi. Bacısı bu evdə dünyaya göz açmışdı. Fateh isə bir bina evində dünyaya gəlmişdi. O vaxtlar atası həyatda idi, dolanışıqları da pis deyildi.

- Oğlum, qapıya baxarsan? Gör kimdi?

Fateh dalıb getdiyi dərin xəyallardan ayıldı. Həqiqətən də, qapı çalınırdı. Açmaq üçün ayağa qalxdı. Məhəllədəki əmilər gəlmişdi: Rüstəm əmi, Səlahəddin əmi, Hikmət əmi və küçədəki





məscidin mollası Sadiq əmi. Fateh əlifbanı Sadiq əmidən öyrənmişdi. Dərhal əlini öpdü. O da Fatehin başını sığalladı və soruşdu:

- Quran oxuyursanmı, unutmamısan ki?

- Oxuyuram, müəllim, oxuduqca da könlüm xoş olur.

Gülüşərək içəri keçdilər. Fateh çaydanın altını yandırmaq üçün mətbəxə getdi. Qayıdanda anasının ağladığını gördü. Nə baş verdiyini başa düşə bilmirdi. Soruşmağa da utandı. Qonaqlar bir saata yaxın oturub söhbət etdikdən sonra getdilər. Fateh də anasından niyə ağladığını soruşdu.

- Sevincdən ağlayıram, oğlum, - dedi. – Bizə fitrə gətirdilər.

- Fitrə nədir, anacan?

- Bir növ sədəqədir, oğul. Müsəlmanın müsəlmana yardımıdır.

- Yəni puldur?

Anası sevinclə oğlunu qucaqlayıb dedi:

- Bəli, puldur. Artıq pencəyini yamamaq məcburiyyətində deyiləm. Bacına da təkcə corab deyil, gözəl bir paltar ala bilərik. Sənə də həmçinin. Hətta kirayə pulunu da verə biləcəyik. Bundan sonra ən az altı ay rahat yaşaya bilərik. Sonrasına Allah kərimdir. İnşallah, başqa bir qapı da açar, gözəl bir iş taparam.

Fateh sevincindən uçurdu. Sabah havanın günəşli olması üçün dua etdi. Yaxşı ki, Ramazan ayı və bayramı var idi. Yaxşı ki, İslam dini qonşu haqqına diqqət yetirməyi, imkansıza əl tutmağı əmr edirdi.

# DOST

Ondan başqa bütün uşaqlar sevinirdi. Hər kəs gülüb əylənir, bir-biri ilə oynayırdı. Təkcə onun gözləri yaşlı idi.

Atasız qalmağın acı yükü ürəyini sızıldadırdı. Dözə bilmədiyi çətin anlar o qədər çox idi ki!.. Artıq həyatdan ümidini kəsmişdi. Bunların çarə olmadığını dərk edə biləcək yaşda idi, amma gördüyü heç bir işdən zövq ala bilmirdi.

Adı Yılmaz idi. On iki yaşında, iri bədənli, ucaboy uşaq idi. Zövqlü geyinərdi. Çünki Almaniyada işləyən atası hər gəlişində ona təptəzə köynəklər, yeni moda şalvarlar, idman ayaqqabıları gətirərdi.

Çox təəssüf ki, gözəl günlər bir anda tükənmiş, Yılmazın iç dünyası qaranlığa bürünmüşdü. Çünki bir həftə əvvəl Almaniyadan atasının vəfat xəbəri gəlmişdi. Səbəbini da-

nışsalar da, artıq xatırlamırdı. Çünki onun üçün mühüm olan atasının necə vəfat etdiyi deyil, onun yoxluğu idi. Artıq yox idi, bu qədər. Bundan belə heç bir zaman onun yanında olmayacaq, “oğlum” deyərək sarılmayacaq, saçlarını oxşamayacaq və onunla boks oynamayacaqdı. Mühüm olan bunlar idi.

Digər uşaqlar sevinclə oynayarkən Yılmaz bir ağaca söykənmiş, yaşarmış gözlərlə bunları fikirləşirdi. Birdən arxa tərəfdən şirin, mülayim bir səs eşitdi:



- Sən niyə dostlarınla oynamırsan?

Əslində heç də tanış səs deyildi. Uşaq səsi idi, amma tanımadığı bir səs. Məhəllə dostlarından birinin səsi olsaydı, dərhal tanıyardı. Hamısının səsini əzbərdən bilirdi. Amma bu səs başqa idi. Sanki bu səsdə ayrı cür mülayimlik, yaxınlıq var idi, onu eşidəndə dərdləri yüngülləşmiş, könlü açılmışdı.

Buna baxmayaraq, heç arxasına da çevrilmədən kobudcasına cavab verdi:

- Sənə nə dəxli var!

Amma səsin sahibi küsüb getmədi. Halbuki onun inciyəcəyini və onu dərdləri ilə baş-başa buraxaraq çıxıb gedəcəyini düşünmüşdü. Yenə eyni mülayim səsi eşitdi:



- Nəsə dərdin var?

Niyə ona suallar verirdi? Niyə əl çəkib getmirdi? Niyə imkan vermirdi ki, dərdlərini fikirləşsin? Kim idi bu uşaq? Yad adam olduğu məlum məsələdir, amma kim idi?

Əsəbi halda geri çevrildi. Özü ilə yaşıd, gülər üzlü, sevimli bir uşaqla üz-üzə gəldi. Bir anda hirsi soyudu. Dərdini bölüşmək ehtiyacı hiss edərək:

- Atam vəfat etdi, - dedi.

Uşaq boynunu bükdü.

- Bilmirdim, - dedi. – Allah rəhmət eləsin, çox kədərləndim.

Yılmaz çarəsiz bir halda əllərini iki yana açıb:

- Üzülməyin nə xeyri var? – dedi. – Həm də Almaniyada, xarici bir ölkədə. Kaş ki, heç getməyəydi, bizi tərk etməyəydi...

- Amma o sizi düşündüyü üçün getmişdi. Sizə yaxşı baxmaq, yaxşı yedirib, yaxşı geydirmək və oxutmaq üçün.

Çiyinlərini çəkdi.

- Elədir, amma indi yoxdur.

Tanımadığı o uşaq qoluna girdi. Özü ilə birlikdə onu da çəkib aparmağa çalışırdı. Qeyri-ixtiyari razılaşdı, onunla bərabər addımlamağa başladı. Qol-qola gedirdilər. Birdən ağlına kim olduğunu soruşmaq gəldi:

- Sən kimsən?

- Atam burdakı məktəbə yeni təyinat alıb, riyaziyyat müəllimidir. Səni məktəbdə heç görməmişəm. Niyə dərsə gəlmirsən?

Yılmaz gözlərini uzaqlara zillədi. Atasının xəyalını görürmüş kimi oldu, sanki ona: "oxu, oğlum!" – deyə səslənirdi. Çünki həmişə belə deyərdi: "Oxu, oğlum..."

- Bəli, - boynunu büküb kövrək səsi ilə dedi, - əslində, atam oxumağımı çox istəyirdi.

Müəllimin oğlu həyəcanla dedi:

- Elə isə sabahdan məktəbə gəl. Atanın arzusunu yerinə yetir. Onu incitmə, ruhunu şad et.

- İçimdən heç nə eləmək gəlmir.

- Bircə dəfə məktəbə gəlsən, içindəki həvəs yenidən geri qayıdar. Dostlarınla bir yerdə olsan, dərdlərini unudarsan. Mən beşinci sinfə gedirəm, bəs sən?

- Mən də bu il beşə getməli idim.

- Nə yaxşı! Eyni partaya əyləşər, bir yerdə oxuyarıq. Eyni partanı bölüşdüyümüz kimi, dərdlərimizi, kədərlərimizi də bölüşərik. Dərslər başlayandan bəri bircə həftə keçib,

çox da geridə qalmamısan. Sabah ilk işin məktəbə gəlmək olsun. O ki qaldı atana... Onunla yenə görüşəcəksən. Ölüm yox olmaq deyil ki, bu, bir yerdən başqa yerə köçməyə bənzəyir. Düşün ki, atan hələ də Almaniyadadır. Nə də olsa, bir gün hamımız bu dünyadan köçüb bir-birimizə qovuşacağıq. Orada bu dünyadakından daha çox dost-tanışımız olacaq, inan mənə!





Yılmaz təzə dostunun danışdıqlarından çox təsirlənmişdi. Çaşqın halda təəccüblə soruşdu:

- Yəni atamla yenidən görüşəcəyəm?

- Əlbəttə, görüşəcəksən! Əslində, atanla fəxr etməlisən. Necə öldüyünü eşitmişəm. Boğulmaqda olan bir uşağı xilas etmək üçün dənizə tullanıb. Uşağı xilas edib, amma öz ayağı tellərə ilişib. Sən bir həyatı xilas etmək üçün öz həyatını fəda edən qəhrəman bir atanın oğlusan.

İçində böyük bir rahatlaşma hiss edirdi. Artıq dünyaya əvvəlki kimi bədbin, ümidsiz baxmırdı. Təzə dostunun əlini tutdu və gülümsəyərək dedi:

- Məhəlləmizə xoş gəldin, dostum.

# QAÇAQ

Naməlum qaçaq. Ağzı açıq, gözləri bərəlmiş, paltarları cırıq və qana bulaşmış halda... Həm iri, həm də uzun boylu olduğu üçün çox sürətli qaçırdı. Təngnəfəs halda tövşüyürdü. Qabağında qaçan uşağa çatmasına az qalmışdı.

Uşaq da, qaçaq qədər olmasa da, bərk qaçırdı. Tək çarəsi var idi: sürətlə qaçmaq. Qaçmaq və onun dalınca düşən qaçaqdan yaxasını qurtarmaq. Diz boyu olan otlar xışıltıyla ona yol açırdı. Arxasına baxmağa qorxurdu, amma qaçağın hələ də onu təqib etdiyini və yaxınlaşdığını hiss edirdi. Çarəsiz bir halda qışqırdı. Amma səsi çıxmırdı. Dəhşətə qapıldı, səsim niyə çıxmır? Qaçağın niyə məhz onun dalınca düşdüyünə də məna verə bilmirdi. Taqəti qalmamışdı. Az qalırdı yorğunluqdan yerə yıxılsın.

Birdən qulağına canavar ulaması gəldi. "Üstümə canavarları göndərəcək", - deyə düşündü. Amma bir anda o dəhşətli səslər kəsildi. "Çox şükür, qurtuldum", - dedi.

Bu səfər qorxunc bir atəş səsi eşitdi. Kimsə silahla atəş açırdı. Qorxudan titrəməyə başladı. Bəlkə bu səfər səsi çıxar deyə yenidən qışqırmağa cəhd etdi. Dəhşətli bir fəryad səsi eşidildi. Amma bu, onun öz səsi deyildi. Çox vəhşicəsinə bir qışqırıq idi. Bəlkə də, qaçağın səsi idi.



Artıq qaçmağa gücü qalmamışdı. Nəhayət, ayaqları bir-birinə dolaşdı və üzüstə yerə sərildi. Başını qaldırıb geri çevrildi. Qaçaq arxasında, ayaq üstə dayanmışdı. Gözlərini bərəldib baxır, bir yandan da dişini ağardaraq canına qorxu salırdı. Onun üstünə atılmağa hazırlaşdığı bir anda arxasından qara pəncələr peyda oldu və onu yaxaladı. Qaçaq onu tutan qara pəncələri üstündən atmağa çalışır, amma bacarmırdı. Uşaq maraqla qaçağın o pəncələrdən qurtulub-qurtulmayacağını izləməyə başladı. Əgər qurtulsa, yenidən ondan qaçmalı idi. Bəs yaxşı, bu iri, qara pəncələr kimin idi? Bir daha qışqırmaq üçün var gücü ilə cəhd etdi. Qan-tər içində idi.

Bu səfər mülayim, amma narahatçılığı bəlli olan bir səs eşitdi:

- Qardaş! Bədri qardaş! Oyan!..

Yad səs deyildi. Bu, qardaşı Sədinin səsi idi. Gözlərini açdı. Öz otağında idi. Daha doğrusu, əmisinin iki qardaşa



ayırdığı qonaq otağında idi. Bir ay idi ki, əmisigilin kənd yerindəki fermasında qonaq idilər. Yaxın günlərdə ata-anası da gələsi idilər. Ferma çox xoşuna gəlmiş, tövlədəki inək və qoyunlarla dostlaşmışdı. Qardaşı ilə birgə onları otarmağa çıxardır, bu işdən böyük zövq alırdı. Kənd həyatından olduqca razı idi. Bəs gördüyü qarabasmalar? Çox qorxunc idi. Elə tərləmişdi ki, başdan-ayağa suyun içində qalmışdı. Hələ də tir-tir əsirdi.

- Həqiqətən otağımızdayıq? – deyə sual verərək özünü ələ almağa çalışdı.

- Əlbəttə, - qardaşı dedi. – Sayıqladığını, qırşqırdığını eşitdim. Tər içindəsən. Yuxuda nə gördün?

Gördüklərini danışdı, hələ də əsirdi.

- Xeyir olar, inşallah, - Sədi dedi. – İndi yat, səhər tezdən sürünü otarmağa aparacağıq.

Qardaşı üçün belə demək rahat idi. Amma gecənin qalan hissəsi Bədri üçün heç də rahat olmadı. Səhər erkəndən qalxdı. Əynini geyindi, qəlyanaltısını etdi. Sonra qardaşı ilə birlikdə sürünü tövlədən çıxartdı, yaşıl otlağa doğru aparmağa başladılar. Çoban iti Qurd da onların yanında idi.

Hava olduqca gözəl idi. Göy üzünə səpələnən xırda-xırda ağ buludlar yerə baxıb gülümsəyirdi. Uzaqda, amma çox



da uzaqda yox, Bolqarıstan torpaqları görünürdü.

Bədri həsrətlə köks ötürüb belə dedi:

- Bilirsənmi, əvvəllər oralar da bizim torpaqlarımız idi. Bolqarıstan, Yunanıstan, Macarıstan... Bütün Balkan yarımadası...

- Ərazimiz çox böyük imiş, - Sədi heyrət içində dedi. Qadim tarixləri haqda çox da məlumatı yox idi. Çünki hələ ikinci sinifdə oxuyurdu.

Günortaya yaxın Qurd özünü narahat aparmağa başladı. Sağa-sola vurnuxur, qulaqlarını şəkləyir, bəzən də bir nöqtəyə gözlərini zilləyib qalırdı. Nəyinsə qoxusunu almış kimi idi.

- Deyəsən, Qurd nəsə təhlükə hiss edir, qardaş, - deyə Sədi dilləndi.

- Bəlkə, dovşan görüb, – Bədri nə baş verdiyini təxmin etdi. – Ya da ki, pişik.

- Bəli, ola bilər.

Qurd ağıllı it idi. Çox yaxşı təlim görmüşdü. Hər iki qardaş bunu bildikləri üçün onun hərəkətlərini diqqətlə izləməyə başladı.

İtin narahatçılığı getdikcə daha da çoxalırdı. Nəhayət, hürərək irəli qaçmağa başladı.



- Dayan, Qurd! – Bədri qışqırdı.

Amma Qurd onu dinləmədi. Əslində, heç belə etməzdi. Verilən əmrə tabe olardı. Deməli, çox mühüm bir problem var idi.

- Arxasınca gedək, - Bədri dedi.

İtin arxasınca düşüb getdilər. Qurd bəzən ayaq saxlayıb geri çevrilir, onları gözləyir, zingildəyir və sanki tələsmələrini istəyirdi.

- Gəlirik, gəlirik, - Bədri mızıldanaraq dedi. – Səninlə yarışacaq gücümüz qalmayıb.

Qurd çalıların arasına qaçdı. Daha çox hürməyə başladı. Birdən nəyinsə üstünə tullandı.

Sədi qorxmuşdu.

- Qardaş, - qorxu içində Bədrinin belinə sarılaraq dedi, - yırtıcı bir heyvan varsa, bizi də parçalayar, biz ora girməyək.

Bədri də qorxmuşdu, amma qardaşına hiss etdirməməyə çalışırdı. Görəsən, Qurd nəyin üstünə cummuşdu, nə ilə boğuşurdu? Bəlkə, köməyə ehtiyacı var?

- Sən burada gözlə, - Bədri qardaşına dedi. Sonra qaça-qaça itin yanına getdi və nə ilə boğuşduğunu gördü.





Yerdə bir adam var idi, yanında da silah. Qurd pəncəsinin tapancanın üstünə qoymuş, gözlərini adama zilləmişdi. Dişlərini ağardıb mırıldayır, arasıra da hürərək onun tərpənməyinə macal vermirdi.

Bədrinin ağlına gələn ilk şey gördüyü yuxu oldu. Yerdəki adam elə yuxuda gördüyü – arxasınca düşən adama bənzəyirdi. Gözləri yırtıcı heyvan kimi hiddətlə baxırdı. Yaralı idi, amma bu, itin aça biləcəyi yara deyildi. Sinəsində ovuc içi boyda qırmızı ləkə var idi. Qan çoxdan laxtalanmışdı.

- İti üstümdən çək! – deyə yad bir ləhcə qışdırdı. – Özünüz də rədd olun buradan!

- Kimsiniz? – Bədri cəsarətini toplayıb soruşdu. – Burada nə işiniz var?

- Sənə nə dəxli var? – adam qəzəblə qışqırdı, - itini çək!

- Sizin üçün kömək çağırım, axı yaralısınız.

- Xeyr! – yaralı adam elə qışqırdı ki, Bədri ürküb geri çəkildi.

- Haydı Qurd, başının üstündən ayrılma! – deyərək itinə səsləndi. Özü isə qardaşını da götürüb fermaya qaçdı.

Başlarına gələni əmisinə danışdı. Dərhal polisə xəbər verdilər. Birlikdə



qaçağı gördükləri yerə getdilər. Qurd hələ də Bədrinin gördüyü yerdə dayanmış, mırıldaya-mırıldaya yad adamı nəzarətdə saxlayırdı.

- Afərin sənə, Qurd! – başını oxşayaraq dedi.

Yaxaladıqları adamın kim olduğu daha sonra meydana çıxdı. Adam bir xəfiyyə idi. Bolqarıstandan Türkiyə sərhəddinə gizlicə keçmək istəyərkən atəş açılmış, gecənin qaranlığında yaralı halda gözdən itmişdi. Bədrinin qarabasma görərkən eşitdiyi atəş səsi gerçək idi. Deməli, yuxuda adamın üstündə gördü-

yü qara pəncələr Qurdun pəncələri idi. Əgər Qurd yanlarında olmasaydı, çətin ki, bu işin öhdəsindən gələ bilərdilər.

Səhəri gün fermadakı evin həyətində Qurd ilə xatirə fotoşəkli çəkdilər. Məktəblər açılan kimi ilk işləri bunu dostlarına göstərmək və başlarına gələn hadisəni danışmaq olacaqdı.




FəALiYYəTLəR

Yavuz Bahadıroğlunun qələmə aldığı, yaşadığımız həyatdan fədakarlıq barədə 9 hekayə oxudun.

- Ən çox hansı fədakarlıq hekayəsi xoşuna gəldi?
- Niyə ən çox o hekayəni bəyəndin?
- Sən o hekayədə olsaydın, necə hərəkət edərdin?

Ən çox ______________________________

______________________________ hekayəsini bəyəndim.

Çünki ______________________________

______________________________

______________________________

______________________________

______________________________

______________________________

______________________________

______________________________

Mən olsaydım ______________________________

______________________________

______________________________ "

______________________________

# İSTƏSƏN YAZ
# İSTƏSƏN DANIŞ

Səncə həmrəylik-əlbir olmaq nə deməkdir?
Bir işdə əlbir olmaq üçün nə edirlər?
Dostlarınla əlbir olaraq yaxşı bir iş görsən,
nə hiss edərsən?

# MÜZAKİRƏ

Səncə insanlar təkbaşına yaşaya bilərmi?
Yoxsa insanlar ictimai həyat sürdüyü üçün mütləq həmrəy olmalıdır?
Bu mövzunu dostlarınla müzakirə edə bilərsən?



# İSTƏSƏN YAZ İSTƏSƏN DANIŞ

Evdə əlbir olmağı tələb edən işlərə dair nümunə verə bilərsən?

Evdə ata-ana ilə hansı sahədə köməkləşərək iş görürsünüz?

Məsələn, axşam yeməyi üçün anan yemək bişirərkən sən süfrəni hazırlayırsanmı? Evdə hansı işlərə kömək etdiyini danışa bilərsən?

# İSTƏSƏN YAZ İSTƏSƏN DANIŞ

Bacı-qardaşlarınla hansı işləri birlikdə köməkləşərək həll edirsiniz? Məsələn, otağınızı səliqəyə salarkən görüləcək işləri bölüşürsünüzmü? Bərabər gördüyünüz işlərdən danışa bilərsən?

# İSTƏSƏN YAZ İSTƏSƏN DANIŞ

Orta məktəbdə birlikdə görülməli olan işlərə misal verə bilərsiniz? Sinifdə, yaxud yaşadığın yerdə hansı işləri dostlarınla birgə edirsən? Bərabər gördüyünüz işlərdən danışa bilərsən?

# İNŞA

Heç indiyə qədər tanımadığın insanlarla birlikdə hansısa bir iş görmüsünüz? Xeyriyyə təşkilatları və yardım dərnəkləri haqda nə fikirləşirsiniz?



# LABİRİNT

Akif yetim uşaqların təhsil ehtiyaclarını qarşılayan bir təşkilata gedəcək və oradakılara yardım edəcək. Ora getməsinə kömək edərsiniz?



# Kəs

# YAPIŞDIR

# HAZIRLA

Dostlarınla birlikdə qrup işi görməyə hazırsan? Bunun üçün əvvəlcə görüləcək işlər hər kəs arasında bölüşdürülməlidir.

Lazım olan əşyalar: qəzet, kley və qayçı.



- Bir nəfər qayçı ilə bəyəndiyi şəkilləri kəsib çıxartsın.
- Bir nəfər kəsilən şəkilləri kleylə başqa bir kağıza yapışdırsın.
- Bir nəfər ortaya çıxan yeni qəzetə bir ad tapsın.
- Sonra birlikdə bu qəzeti asmaq üçün yer tapın.





# DOĞRU SƏHV

Aşağıdakılardan hansıları həmrəyliyə və köməkləşməyə uyğun olan davranışlardır?
Doğru olanların yanına (✓), səhv olanların yanına (✗) işarəsi yaza bilərsən?

- [ ] Anam keks üçün lazım olan ərzaqları bir qaba boşaldanda mən də mikseri gətirirəm.
- [ ] Dərsdə aldığım qiymətləri heç kimə göstərmərəm.
- [ ] "Birimiz hamımız, hamımız birimiz üçün" sözü mənim üçün mənasızdır.
- [ ] Məktəb tərəfindən gəzintiyə aparıldığımız zaman süfrə, yemək, futbol topu kimi orada lazım ola biləcək əşyaları götürməkdən xoşum gəlir.
- [ ] Futbol oynayan uşaqların topu mən tərəfə düşsə, topu onlara qaytarmaram.
- [ ] Layihə çalışmalarında qrup şəklində iş hazırlamaqdan xoşum gəlir.

# ARAŞDIRMA

Zəkat və sədəqə nədir, araşdıra bilərsiniz?
Zəkat və sədəqənin daxilində köməkləşmək hissi varmı?
Bu mövzuda inşa yaza bilərsənmi?

# İSTƏSƏN YAZ İSTƏSƏN DANIŞ

Heyvanlar arasında köməkləşməyə misal verə bilərsənmi? Bizim ağlımıza hər zaman birlikdə işləyən, hər birinin öz vəzifəsi olan arılar gəldi. Bəs sənin ağlına hansı heyvanlar gəlir?

# Şəkil çək



Heyvanlar arasındakı köməkləşməyin
əhəmiyyətinin şəklini çəkə bilərsənmi?
Bizim yadımıza dayanmadan işləyən arılar düşdü.
Görək siz nə şəkli çəkəcəksiniz?










## LABIRINT



## DOĞRU-SƏHV

✓ - ✗ - ✗ - ✓ - ✗ - ✓